"FİNCA AZERBAİJAN" MƏHDUD MƏSULİYYƏTLİ QEYRİ-BANK KREDİT TƏŞKİLATI

Hər birinin nominal dəyəri 100 (bir yüz) Azərbaycan manatı olan 50 000 (əlli min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların

BAZA EMİSSİYA PROSPEKTİ

2026

Qeyd: Azərbaycan Respublikası Mərkəzi Bankı bu Baza Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

Bakı – 2026

Baza Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və

Baza Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

BƏYANAT

Biz, aşağıda imza edənlər,

1.Baza emissiya prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.

2."FINCA AZERBAIJAN" MM QBKT-nin hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 50.000 (əlli min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların Baza emissiya prospektinə daxil edilən bütün məlumatlar həqiqi faktlara əsaslanır, heç bir fakt gizlədilməmişdir və bunun üçün bütün lazımi tədbirlər görülmüşdür.

"FINCA AZERBAIJAN" MM QBKT-nin

Direktoru v.i.e

Zaur Nurməmmədov

(imza)

Tarix: 17 sentyabr 2026-cı il

"FINCA AZERBAIJAN" MM QBKT-nin

Maliyyə Meneceri

Vüsal Quliyev

(imza)

Tarix: 17 sentyabr 2026-cı il

Mündəricat

BƏYANAT 2

XÜLASƏ 4

1. XƏBƏRDARLIQ 4

2. EMİTENT BARƏDƏ MƏLUMAT 5

3. QİYMƏTLİ KAĞIZLAR HAQQINDA MƏLUMAT 9

4. RİSK FAKTORLARI 12

5. TƏKLİF 16

İSTİQRAZLARIN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT 18

6. EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT 18

7. SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI 19

8. EMİTENT BARƏDƏ MƏLUMAT 19

9. EMİTENTİN BİZNESİNİN İCMALI 20

10. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK 22

11. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT 23

12. GƏLİR PROQNOZU 23

13. EMİTENTİN İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI 23

14. İDARƏ HEYƏTİNİN İŞGÜZAR PRAKTİKASI 25

15. EMİTENTİN NİZAMNAMƏ KAPİTALINDA MÜHÜM İŞTİRAK PAYINA SAHİB OLAN ŞƏXSLƏR 25

16. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI 26

17. EMİTENT HAQQINDA ƏLAVƏ MƏLUMATLAR 36

18. İSTİQRAZLAR HAQQINDA ÜMUMİ MƏLUMAT 37

Qeyd: Baza Emissiya Prospektinin mətnində "FİNCA Azerbaijan" MM QBKT, emitent adları altında çıxış edir..

XÜLASƏ

1.XƏBƏRDARLIQ

1.1. Bu sənəd Baza Emissiya Prospektinin giriş hissəsidir.

1.2. İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar verməzdən əvvəl bu Baza Emissiya Prospektini (informasiya memorandumunu) oxuduqdan sonra həyata keçirilməlidir.

1.3. Baza Emissiya Prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Baza Emissiya Prospektini hazırlamış şəxslər mülki məsuliyyəti daşıyırlar.

Anlayışlar

- **Nəzarət orqanı** – Azərbaycan Respublikasının Mərkəzi Bankı.
- **Qiymətli kağızlar bazarı** – qiymətli kağızların emissiyası, buraxılması, tədavülü, ödənilməsi, mülkiyyətçiliyi, saxlanılması, kompensasiyası, öhdəliklərlə yüklənməsi, tənzimlənməsi və digər əməliyyatların həyata keçirilməsi üzrə subyektlər arasında olan hüquqi və iqtisadi münasibətlərin məcmusu;
- **İstiqraz** – İstiqraz emitentin istiqraz mülkiyyətçisinə borclu olduğunu təsdiqləyən və şərtlərindən asılı olaraq, müəyyən edilmiş tarixdə faiz (kupon) və ya diskont və əsas məbləği ödənilən borc investisiya qiymətli kağızıdır;
- **Faiz ödənişi (və ya kupon)** – istiqrazlar üzrə investorlara ödənilən faiz məbləğidir. Kuponlar istiqrazın nominal dəyərindən hesablanır və faizlə göstərilir;
- **Emitent** – İstiqrazların emissiyasını həyata keçirən hüquqi şəxs. Emitent buraxdığı qiymətli kağızların mülkiyyətçisi deyildir. Emitent qanunda nəzərdə tutulan məhdudiyyətlər nəzərə alınmaqla geri aldığı qiymətli kağızların mülkiyyətçisi kimi çıxış edir;
- **İnvestor** – qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin alıcısı və ya onları almaq təklifini verən şəxs;
- **Anderraytinq** – emitentin və ya üçüncü şəxslərin xeyrinə qiymətli kağızların kütləvi təklifi və yerləşdirilməsi üzrə investisiya xidməti;
- **Marketmeyker** –qiymətli kağızlar bazarında mütəmadi olaraq öz hesabına və fond birjası ilə razılaşdırılmış qiymət dəhlizi çərçivəsində özünün müəyyənləşdirdiyi qiymətlərlə qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin alqı-satqısını həyata keçirən hüquqi şəxs;
- **Fond birjasının listinqi** – fond birjasının daxili qaydaları ilə müəyyən edilmiş tələblərə əsasən fond birjasında ticarətə qəbul edilən qiymətli kağızların siyahısı;

■ **Mərkəzi depozitar** – onun üzvləri olan investisiya şirkətləri və investisiya fondunun depozitarları ilə birlikdə depozitar sistemini təşkil edən və həmin sistemi idarə edən maliyyə bazarlarına nəzarət orqanının təsis etdiyi qeyri-kommersiya hüquqi şəxsidir;

■ **Depo hesabı** – mərkəzi depozitarın üzvünün müraciəti əsasında müştəri üçün mərkəzi depozitarda açılmış və özündə müştərinin qiymətli kağızlarına olan hüquqlara dair qeydləri əks etdirən hesab.

2. EMİTENT BARƏDƏ MƏLUMAT

2.1. **İstiqrazların emissiyası zamanı aşağıdakı məlumatlar təqdim edilməlidir**

2.1.1. Emitentin tam adı: "FİNCA AZERBAİJAN" MƏHDUD MƏSULİYYƏTLİ QEYRİ-BANK KREDİT TƏŞKİLATI;

2.1.2. Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə: Hüquqi ünvan: Bakı şəhəri, AZ1014, Nəsimi rayonu, Fizuli küçəsi 67, Faktiki ünvan: Bakı şəhəri, AZ1065, C.Cabbarlı küçəsi 44, Caspian Plaza III, digər kommersiya təşkilatı, Azərbaycan Respublikası

2.1.3. Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:

FINCA Azerbaijan Məhdud Məsuliyyətli Bank Olmayan Kredit Təşkilatı (bundan sonra – "Emitent") Azərbaycan Respublikasında mikromaliyyə sektorunda fəaliyyət göstərir və əsasən mikro və kiçik sahibkarlıq subyektlərinin maliyyələşmə ehtiyaclarına uyğun kredit məhsulları təqdim edir. Emitentin fəaliyyətinə maliyyə xidmətləri bazarındakı rəqabət, qanunvericilik və tənzimləyici dəyişikliklər, texnoloji inkişaf və makroiqtisadi şərait təsir göstərir.

Rəqabət mühiti. Banklar və bank olmayan kredit təşkilatları arasında rəqabət kredit məhsullarının şərtləri, maliyyələşmənin əlçatanlığı və müştəri xidmətlərinin keyfiyyəti baxımından əhəmiyyət daşıyır. Bu şəraitdə Emitentin müştəri ehtiyaclarına uyğun məhsullar təqdim etməsi və əməliyyat səmərəliliyini qoruması onun rəqabət qabiliyyətinə təsir göstərə bilər.

Tənzimləyici və texnoloji dəyişikliklər. Bank olmayan kredit təşkilatlarının fəaliyyətinə dair qanunvericilik və prudensial tələblər, eləcə də maliyyə xidmətlərinin rəqəmsallaşdırılması sektora təsir edən əsas amillərdəndir. Bu dəyişikliklər Emitentin risklərin idarə edilməsi, daxili nəzarət, texnoloji infrastruktur və əməliyyat xərclərinə təsir göstərə bilər. Emitent 2018-ci ildən mərkəzləşdirilmiş çağrı mərkəzinə əsaslanan satış yanaşmasından, 2020-ci ildən isə mərkəzləşdirilmiş anderraytinq modelindən istifadə edir.

Müştəri tələbi və kredit riskləri. Mikro və kiçik sahibkarlıq subyektlərinin maliyyələşmə ehtiyacları mikromaliyyə sektoruna təsir edən əsas amillərdəndir. Eyni zamanda, inflyasiya, faiz dərəcələrinin dəyişməsi və borcalanların gəlirlərindəki dəyişikliklər onların ödəmə qabiliyyətinə və kredit portfelinin keyfiyyətinə təsir göstərə bilər. Bu baxımdan, Emitent üçün kredit risklərinin qiymətləndirilməsi və kredit portfelinin keyfiyyətinin qorunması mühüm əhəmiyyət daşıyır.

Qeyd olunan tendensiyalar Emitentin əməliyyatlarına və maliyyə nəticələrinə təsir göstərə bilər. Emitentin fəaliyyətinin nəticələri bazar şəraitinə uyğunlaşmaq, tənzimləyici tələblərə riayət etmək və kredit risklərini effektiv idarə etmək qabiliyyətindən asılıdır.

2.1.4. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:

Emitentin digər hüquqi şəxslərdə birbaşa və ya dolayısı ilə iştirak payları və ya nəzarət imkanları mövcud deyil.

Emitentin qrupda olan şəxslərdən asılılığı aşağıdakı kimidir:

Adı	Əsas fəaliyyəti	Təsis edildiyi ölkə	Kapitalda payı
FİNCA MİCROFİNANCE COÖPERATİEF U.A	İnsanlara vəsaitlərini artırmağa, yeni iş yerləri açmağa və həyat şəraitlərini yaxşılaşdırmağa imkan verən uzun müddətli həll yolları vasitəsilə yoxsulluğu azaltmaqdır.	Niderland Krallığı	100%

2.1.5. Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd: Mövcud deyil.

2.1.6. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:

Emitentin 31 dekabr 2024-cü il və 31 dekabr 2025-ci il tarixlərinə başa çatan maliyyə illəri üzrə maliyyə hesabatları müstəqil auditor tərəfindən audit edilmişdir. Audit şirkətinin adı BDO Azerbaijan MMC-dir. Audit rəyində bilidirilir ki, FİNCA Azerbaijan Məhdud Məsuliyyətli Qeyri-Bank Kredit Təşkilatının (Şirkət) 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə bitmiş il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əhəmiyyətli uçot siyasətlərinin xülasəsi və sair izahedici məlumatları özündə ehtiva edən qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditi aparılmışdır. Audit rəyinə görə maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Şirkətin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə bitmiş il üzrə onun maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Mühasibat Standartları Şurası (BMSŞ) tərəfindən qəbul edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün əks etdirir. 2024-cü il üzrə maliyyə hesabatları da müstəqil auditor tərəfindən audit edilmiş və MHBS-ə uyğun olaraq Şirkətin maliyyə vəziyyətini və maliyyə nəticələrini düzgün əks etdirdiyi barədə rəy verilmişdir.

2.1.7. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə

məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:
Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişiklik olmamışdır.

Göstəricilər	2025 (audit olunmuş)	2024 (audit olunmuş)	2023 (audit olunmuş)
Mənfəət/Zərər (vergidən əvvəl)	1,938,000	3,470,000	4,513,000
Xalis mənfəət (vergidən sonra)	1,620,000	3,155,000	3,908,000
Cəmi öhdəliklər	57,571,000	58,284,000	44,097,000
Cəmi kapital	17,458,000	18,094,000	17,866,000
Cəmi aktivlər	75,029,000	76,378,000	61,963,000
Kredit Portfeli	66,815,000	67,639,000	59,900,000
Pul vəsaitləri	6,582,000	8,507,000	2,725,000

2026-ci il maliyyə hesabatları auditor tərəfindən təsdiq olunmadığı üçün, yalnız 6 aylıq maliyyə göstəriciləri müqayisəli verilir:

Göstəricilər	2026 (6 ay)	2025 (6 ay)
Mənfəət/Zərər (vergidən əvvəl)	**799,861**	**753,716**
Xalis mənfəət (vergidən sonra)	**998,521**	**813,216**
Cəmi öhdəliklər	**56,887,773**	**53,173,592**
Cəmi kapital	**18,546,562**	**18,907,142**
Cəmi aktivlər	**75,344,336**	**72,080,734**
Kredit Portfeli	**66,283,488**	**70,394,357**
Pul vəsaitləri	**8,711,959**	**4,337,978**

2.1.8. Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:
"FINCA Azerbaijan" MM QBKT-nin ödəmə qabiliyyətinin qiymətləndirilməsi zamanı onun maliyyə vəziyyətinə, pul vəsaitlərinin hərəkətinə və öhdəliklərini vaxtında yerinə yetirmək imkanına təsir göstərə biləcək hadisələr nəzərə alınır.

Son üç il ərzində Emitent öz fəaliyyətinin maliyyələşdirilməsi üçün əsasən bank kreditlərindən (o cümlədən "Ziraat Bank" ASC, "Access Bank" ASC, "ABB" ASC və "AFB" ASC), beynəlxalq maliyyə institutlarından və mikromaliyyə investisiya fondlarından (Blue Orchard, Triple Jump, ResponsAbility SICAV (Lux) Financial Inclusion Fund, ResponsAbility SICAV (Lux) Micro and SME Finance Debt Fund, "Financing for Healthier Lives" Sosial İstiqraz Proqramı, IIV Mikrofinanzfonds, EMF), Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) xətti üzrə güzəştli maliyyələşmədən, qiymətli kağızlar bazarından (istiqraz buraxılışları) və fəaliyyət nəticəsində formalaşan daxili pul axınlarından istifadə etmişdir. Cəlb edilmiş maliyyə resursları

əsasən kredit portfelinin genişləndirilməsi, cari əməliyyatların maliyyələşdirilməsi və likvidliyin qorunması məqsədlərinə yönəldilmişdir.

Emitent fəaliyyətinin maliyyələşdirilməsi, kredit portfelinin genişləndirilməsi və maliyyə resurslarının şaxələndirilməsi məqsədilə qiymətli kağızlar bazarından və digər borclanma alətlərindən istifadə etməyə davam edir. Hazırkı vəziyyətə əsasən, Emitentin qiymətli kağızlar bazarı vasitəsilə (istiqrazlar üzrə) cəlb etdiyi vəsaitlərin qalıq məbləği manat nominallı buraxılışlar üzrə təxminən 13 mln. manat, ABŞ dolları nominallı buraxılışlar üzrə isə təxminən 5 mln. ABŞ dolları ekvivalentindədir; bu vəsaitlər bir neçə ayrı-ayrı emissiya üzrə formalaşmışdır. Digər borc mənbələri (bank kreditləri, beynəlxalq fondlar və AKİA xətti) üzrə isə qalıq öhdəlik məbləği təxminən 22,9 mln. manat təşkil edir. Bu maliyyələşmə mənbələri üzrə faiz dərəcələri əsasən illik 7%-14% aralığında formalaşmışdır (AKİA xətti üzrə güzəştli 2,5% dərəcəsi istisna olmaqla).

Emitent istiqraz sahibləri qarşısında üzərinə götürdüyü bütün öhdəliklərin vaxtında və tam həcmdə icrasına məsuliyyət daşıyır. İstiqrazlar üzrə öhdəliklərin təminatı Emitentin maliyyə vəziyyəti, aktivləri və gələcək pul axınları hesabına həyata keçirilir.

Son üç il ərzində Emitent tərəfindən cəlb edilmiş borc vəsaitləri kredit portfelinin maliyyələşdirilməsi, əməliyyat fəaliyyətinin genişləndirilməsi və likvidliyin idarə olunması məqsədləri üçün istifadə edilmişdir. Portfel keyfiyyəti göstəricisi olan PAR>30 (30 gündən artıq gecikmiş kreditlərin portfeldə payı) sabit və tədricən yaxşılaşan tendensiya nümayiş etdirmişdir: 2023-cü ildə 8,7%, 2024-cü ildə 8,68%, 2025-ci ildə isə 8,56%.

Emitent rəhbərliyinin qiymətləndirməsinə əsasən, mövcud borc öhdəlikləri və maliyyələşmə strukturu Emitentin cari və gələcək öhdəliklərini yerinə yetirməsi üçün kifayət qədər maliyyə dayanıqlığı təmin edir. Emitentin əsas gəlir mənbəyi kredit portfeli üzrə faiz gəlirləri və maliyyə xidmətlərindən əldə olunan digər gəlirlərdir. Son üç il ərzində kredit məhsullarına olan tələbin dəyişməsi, kredit portfelinin həcmindəki dinamika, habelə müştəri bazasının genişlənməsi Emitentin gəlirlərinin formalaşmasına təsir göstərmişdir.

Son üç il ərzində Emitentin kredit reytinqinin dəyişdirilməsinə dair məlumat mövcud deyildir. Emitentin borc öhdəliklərinin icrasında gecikmələrə, ödəniş qabiliyyətinin zəifləməsinə və ya fəaliyyətinin davamlılığı ilə bağlı əhəmiyyətli risklərə səbəb olmuş hər hansı hadisə qeydə alınmamışdır.

Emitentin rəhbərliyinə məlum olan və Emitentin borc öhdəliklərini vaxtında yerinə yetirmək qabiliyyətinə əhəmiyyətli mənfi təsir göstərə biləcək digər hadisələr mövcud deyildir.

2.1.9. Emitentin əsas fəaliyyətlərinin təsviri:

"FİNCA AZERBAİJAN" MM QBKT AR qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər. Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik "FİNCA AZERBAİJAN" MM QBKT , həmçinin, aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:

- Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);
- Lizinq;
- Veksellərin uçotu;

- Qarantiyanın verilməsi;
- Sığorta agenti xidmətlərinin göstərilməsi;
- Borcalanlara, o cümlədən, birgə borcalan qruplarına maliyyə, texniki, idarəetmə və maliyyə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

2.1.10. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətinin xüsusiyyəti:

Müəssisənin nizamnamə kapitalı 100 (yüz) % payla bir şəxsə məxsusdur. Cəmiyyətin ali idarəetmə orqanı onun İştirakçılarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər.

3. QİYMƏTLİ KAĞIZLAR HAQQINDA MƏLUMAT

3.1. İstiqraz emissiyası zamanı aşağıdakı məlumatlar təqdim edilməlidir

3.1.1. İstiqrazların növü: Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar.

3.1.2. İstiqrazların valyutası: Azərbaycan manatı

3.1.3. İstiqrazlar ilə təsbit olunan məhdudiyyətlər: İstiqrazların alqı-satqısı, dövriyyəsi və hüquqlarının həyata keçirilməsi ilə bağlı məhdudiyyətlər mövcud deyil;

3.1.4. İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:

- Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini bütün digər kreditorların tələbləri ilə birlikdə növbəlilik prinsipi əsasında Emitentdən tələb etmək;
- Özünə məxsus istiqrazların vəziyyəti barədə məlumat almaq üçün birbaşa Milli Depozit Mərkəzinə (bundan sonra "Mərkəzi Depozitar") müraciət etmək;
- İstiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yükləmək. Belə yüklənmə qiymətli kağızlar üzrə depozitar sistemində qeydiyyata alındığı andan qüvvəyə minir;
- İstiqrazlarla təsdiqlənmiş hüquqları alqı-satqı əqdləri bağlamaq yolu ilə ötürmək;
- İstiqrazlar üzrə ödənilən faizlər təxirə salınarsa, həmin müddət ərzində ödənilməyən faizləri istiqrazların ödənilmə vaxtında almaq
- İstiqrazları tədavül müddəti ərzində istənilən vaxt özgəninkiləşdirmək
- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 15 (on beş) faiz həcmində faiz almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

3.1.5. İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin nəyin əsasında hesablanması üsulu, həmin əsas barədə məlumat və onun müəyyən olunmasının mənbələri:

İstiqrazlar üzrə illik faiz dərəcəsi 15.00 (on beş) faiz təşkil edir. İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən hər 3 (üç) təqvim ayından bir (bir ayda 30 gün olduğunu qəbul etmək şərti ilə) ödənilir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti iş günü ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilir. İstiqrazların nominal dəyəri sonuncu kupon ödənişi ilə birlikdə ödəniləcəkdir. İstiqrazların tədavül müddəti 18 (on səkkiz) ay təşkil edir.

3.1.6. Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:

İstiqrazlar təmin edilməmiş formada buraxılır.

3.1.7. İstiqrazların geri satın alınma şərtləri:

Emitent tərəfindən istiqrazların birtərəfli geri satınalınması hüququ və ya öhdəliyi yoxdur. Emitent investorların razılığı olmadan geri satınalmanı həyata keçirə bilməz. Geri satınalma halı baş verdikdə hər iki tərəfin (emitent və investorlar) qarşılıqlı razılığı ilə həyata keçiriləcəkdir.

3.1.8. Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:

İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

$$TF = \frac{\left(\frac{N * D * G}{360}\right)}{100}$$

Burada:

TF – Bir istiqraz üzrə toplanmış faizlər(Azərbaycan manatı) ilə ifadə olunur;

N – Bir istiqrazın nominal dəyəri: 100 (yüz) Azərbaycan manatı;

D – İstiqrazların illik faiz dərəcəsi: 15 (on beş) faiz;

G – İstiqrazların faiz ödəniş dövrünün müddəti (hər 3 (üç) ayda bir (bir ayda 30 (otuz) gün olduğunu qəbul etmək şərti ilə);

İstiqraz üzrə bir faiz dövrünə düşən məbləğ 3.75 (üç tam yüzdə yetmiş beş) manat təşkil edir.

3.1.9. İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı: Mövcud deyildir.

3.1.10. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat: İstiqrazlar təmin edilməmiş formada təklif edilir.

3.1.11. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri.

İstiqrazların abunə yazılışı formasında kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Baza emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların ticarətə qəbul edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Baza emissiya prospekti qeydiyyata alınıb, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Baza emissiya prospektində iştirak edən "Bakı Fond Birjası" QSC yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir

- dövlət qiymətli kağızları bazarı
- korporativ qiymətli kağızlar bazarı
- törəmə maliyyə alətləri bazarının

Ticarətə buraxılmanın şərtləri "Bakı Fond Birjasında" qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması, delistinqi Qaydaları" əsasında tənzimlənir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Baza emissiya prospekti qeydiyyata alınıb, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

Yerləşdiyi ünvan: City Point Biznes Mərkəzi, Cəlil Məmmədquluzadə küç, 102A, Bakı, Azərbaycan
Elektron poçt ünvanı: info@bse.az
Internet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az
Tel: +994 12 498 98 20

İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi baza emissiya prospekti və hər bir istiqraz buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. Bunun üçün istiqraz buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ilk növbədə Listinq Komitəsindən ticarətə qəbul üzrə icazə alınacaq, daha sonra istiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət ediləcəkdir. Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC (bundan sonra – BFB) yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, abunə yazılışı vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilçisi kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

• dövlət qiymətli kağızları bazarı
• korporativ qiymətli kağızlar bazarı
• törəmə maliyyə alətləri bazarının

Ticarətə buraxılmanın şərtləri "Bakı Fond Birjası" QSC-də qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması və delistinq Qaydaları" və "Bakı Fond Birjasında qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə ticarətin təşkili və keçirilməsi Qaydaları" əsasında tənzimlənir.

İstiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən "PAŞA BANK" ASC-də Emitentin adına açılmış müvəqqəti cari hesabına köçürməlidirlər.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

4. RİSK FAKTORLARI

4.1. Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları aşağıdakılardır:

4.1.1. Ödəniş riski

İstiqrazlar üzrə faiz və əsas məbləğ ödənişləri emitentin maliyyə vəziyyətindən və pul axınlarından asılıdır. Emitent kredit portfelindən daxilolmaları, likvidlik mövqeyini və borc öhdəliklərinin ödəniş qrafiklərini mütəmadi izləyir. Bununla belə, borcalanların ödənişlərinin əhəmiyyətli azalması və ya maliyyələşməyə çıxışın məhdudlaşması istiqrazlar üzrə ödənişlərin vaxtında və tam icrasını çətinləşdirə bilər.

4.1.2. Təminatsızlıq riski

Təklif olunan istiqrazlar təmin edilməmişdir və onların ödənişi üçün ayrıca girov predmeti ayrılmır. Öhdəliklərin icrası emitentin ümumi maliyyə resursları hesabına həyata keçirilir. Emitentin müflisləşməsi və ya ləğvi halında istiqraz sahiblərinin tələblərinin ödənilməsi tətbiq olunan qanunvericiliyə, tələblərin növbəliliyinə və mövcud aktivlərin dəyərinə bağlı olacaqdır. Aktivlərin kifayət etməməsi investorun əsas məbləği və faizləri qismən və ya tam əldə edə bilməməsi ilə nəticələnə bilər.

4.1.3. Bazar likvidliyi riski

İstiqrazların təkrar bazarda satış imkanları bazar tələbindən və ticarət fəallığından asılıdır. İnvestor istiqrazları ödəmə müddətindən əvvəl satmaq istədikdə alıcı tapmaqda çətinliklə üzləşə və ya onları nominal dəyərdən aşağı qiymətə satmalı ola bilər.

4.1.4. Faiz dərəcəsi və bazar qiyməti riski

Bazar faiz dərəcələrinin yüksəlməsi sabit faizli istiqrazların bazar qiymətinin azalmasına səbəb ola bilər. Emitentin maliyyə vəziyyəti və kredit qabiliyyəti barədə bazar gözləntilərinin dəyişməsi də istiqrazların qiymətinə təsir göstərə bilər. Bu dəyişikliklər istiqrazları ödəmə müddətindən əvvəl satan investorun gəlirliliyini azalda və ya zərərə səbəb ola bilər.

4.1.5. İnflyasiya və valyuta riski

İnflyasiyanın yüksəlməsi istiqrazlar üzrə alınan faizlərin və geri qaytarılan əsas məbləğin real alıcılıq qabiliyyətini azalda bilər. İstiqrazın ifadə olunduğu valyuta investorun gəlir və ya xərclərinin valyutasından fərqləndikdə, məzənnə dəyişiklikləri investisiyanın həmin valyutada dəyərinə və gəlirliliyinə təsir göstərə bilər.

4.1.6. Makroiqtisadi risk

Azərbaycan Respublikasında və beynəlxalq maliyyə bazarlarında baş verən makroiqtisadi dəyişikliklər Emitentin maliyyə vəziyyətinə, əməliyyat nəticələrinə və kredit portfelinin keyfiyyətinə mənfi təsir göstərə bilər. İqtisadi artım tempinin zəifləməsi, iqtisadi fəallığın azalması, işsizlik səviyyəsinin yüksəlməsi, əhalinin real gəlirlərinin azalması və sahibkarlıq subyektlərinin maliyyə vəziyyətinin pisləşməsi borcalanların kredit öhdəliklərini vaxtında və tam yerinə yetirmək imkanlarını məhdudlaşdıra bilər. Bu hallar kreditlər üzrə gecikmələrin və problemli kreditlərin artmasına, kredit portfelindən daxilolmaların azalmasına və kredit riskləri üzrə ehtiyatların artmasına səbəb ola bilər. Nəticədə Emitentin gəlirliliyi, likvidlik mövqeyi və istiqrazlar üzrə öhdəliklərini vaxtında və tam icra etmək qabiliyyəti mənfi təsirə məruz qala bilər.

4.1.7. İqtisadi və maliyyə şəraitində dəyişikliklər riski

Azərbaycan Respublikasında və beynəlxalq bazarlarda iqtisadi və maliyyə şəraitinin dəyişməsi, o cümlədən maliyyələşmə mənbələrinin bahalaşması, maliyyə resurslarına çıxış imkanlarının məhdudlaşması, xarici iqtisadi mühitdə qeyri-müəyyənliyin artması və maliyyə bazarlarında volatilliyin yüksəlməsi Emitentin fəaliyyətinə mənfi təsir göstərə bilər. Belə dəyişikliklər Emitentin maliyyələşmə xərclərinin artmasına, kreditləşmə fəaliyyətinin həcminin azalmasına, borcalanların ödəmə qabiliyyətinin zəifləməsinə və maliyyə nəticələrinin pisləşməsinə səbəb ola bilər. Bu amillərin təsiri Emitentin istiqrazlar üzrə faiz və əsas məbləğ ödənişlərini həyata keçirmək imkanlarına da təsir göstərə bilər.

4.1.8. Tənzimləyici və qanunvericilik dəyişiklikləri riski

Azərbaycan Respublikasının qanunvericiliyində, o cümlədən bank olmayan kredit təşkilatlarının fəaliyyətini, kreditləşmə şərtlərini, istehlakçı hüquqlarının müdafiəsini, kredit risklərinin idarə edilməsini, kapital və digər prudensial tələbləri, maliyyə hesabatlılığını və vergi öhdəliklərini tənzimləyən normativ hüquqi aktlarda dəyişikliklər edilməsi Emitentin fəaliyyətinə və maliyyə göstəricilərinə təsir göstərə bilər. Yeni tələblərin tətbiqi əlavə əməliyyat və uyğunluq xərclərinin yaranmasına, mövcud biznes proseslərinin dəyişdirilməsinə, müəyyən maliyyə məhsullarının şərtlərinə və ya həcminə yenidən baxılmasına zərurət yarada bilər. Belə dəyişikliklər Emitentin gəlirliliyinin azalmasına, maliyyə resurslarından istifadə imkanlarının məhdudlaşmasına və istiqrazlar üzrə öhdəliklərin icrasına təsir göstərə bilər.

4.1.9. Prudensial tələblərin dəyişməsi riski

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən Emitentin fəaliyyətinə tətbiq olunan prudensial normativlərin, kapital tələblərinin, risklərin idarə edilməsi qaydalarının və hesabatlılıq öhdəliklərinin dəyişdirilməsi Emitentin maliyyə və əməliyyat fəaliyyətinə təsir göstərə bilər. Belə dəyişikliklər əlavə kapital və ya maliyyə resurslarının cəlb edilməsini, aktivlərin strukturunun dəyişdirilməsini, kreditləşmə həcminin məhdudlaşdırılmasını və əlavə xərclərin çəkilməsini tələb edə

bilər. Emitentin yeni tələblərə vaxtında və tam uyğunlaşa bilməməsi və ya uyğunlaşma ilə bağlı xərclərin artması onun maliyyə vəziyyətinə, likvidliyinə və istiqrazlar üzrə öhdəliklərini icra etmək imkanlarına mənfi təsir göstərə bilər.

4.2. Emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:

4.2.1. Kredit portfelinin keyfiyyəti və borcalanların ödəmə qabiliyyətindən asılılıq

Emitentin əsas fəaliyyəti kreditləşmə olduğundan, gəlirlərinin və pul daxilolmalarının mühüm hissəsi borcalanların ödənişlərindən formalaşır. Borcalanların gəlirlərinin azalması, biznes xərclərinin və borc yükünün artması kreditlərin geri qaytarılmasına mənfi təsir göstərə bilər. Gecikmələrin və kredit itkilərinin artması ehtiyat xərclərini yüksəldə, gəlirləri və likvidliyi azalda bilər.

Emitent bu riski borcalanların ödəmə qabiliyyətinin qiymətləndirilməsi, çoxsəviyyəli təsdiq mexanizmləri, skorinq, portfel və kreditlərin verilmə dövrləri üzrə təhlillər, monitorinq və yığım tədbirləri vasitəsilə idarə edir. Bu tədbirlər portfel keyfiyyətinin qorunmasına xidmət etsə də, əlverişsiz şəraitdə kredit itkilərinin artması istiqraz ödənişləri üçün mövcud vəsaitlərə təsir göstərə bilər.

4.2.2. Kredit portfelinin konsentrasiyası riski

Kredit portfelinin çoxsaylı borcalanlar arasında bölüşdürülməsi fərdi borcalan üzrə konsentrasiya riskini məhdudlaşdırır. Bununla yanaşı, kənd təsərrüfatı ilə əlaqəli fəaliyyətlərin portfeldə əhəmiyyətli payı (~60%), ümumi hadisələrin bir neçə borcalana eyni vaxtda təsir etməsi riskini yaradır. Məhsuldarlığın azalması, məhsul qiymətlərinin dəyişməsi və istehsal xərclərinin artması kredit ödənişlərini zəiflədə bilər.

Emitent sektor, region və məhsul üzrə konsentrasiya göstəricilərini izləyir və onları kredit qərarlarında nəzərə alır.

4.2.3. Likvidlik və yenidən maliyyələşmə riski

Emitent fəaliyyətini yerli və xarici kreditorlardan cəlb etdiyi vəsaitlər və istiqraz emissiyaları vasitəsilə maliyyələşdirir. Kreditlərdən daxilolmalarla borc öhdəliklərinin ödəniş tarixləri arasında uyğunsuzluq, maliyyələşmənin yenilənməməsi və ya yeni vəsaitlərin gecikməsi likvidliyə təzyiq yarada bilər.

Emitent likvidlik göstəricilərini, pul axınlarını və borc ödənişlərini izləyir, mövcud və yeni maliyyələşmə mənbələri ilə işləyərək maliyyələşmənin diversifikasiyasına çalışır. Bununla belə, bazar şəraitinin pisləşməsi və ya kredit müqavilələrinin maliyyə şərtlərinin pozulması əlavə maliyyələşməni məhdudlaşdıra və müqavilə şərtlərindən asılı olaraq vaxtından əvvəl ödəniş tələbləri yarada bilər. Belə hallar istiqrazlar üzrə ödənişlərin icrasını çətinləşdirə bilər.

4.2.4. Valyuta riski

Xarici valyutada cəlb edilən vəsaitlər məzənnə dəyişikliklərinə həssaslıq yaradır. Manatın dəyər itirməsi həmin öhdəliklərin manat ifadəsində məbləğini artıra bilər. Emitent açıq valyuta mövqeyi üzrə limitlər tətbiq edir, mövqeyi mütəmadi izləyir və xarici valyutada

maliyyələşmə üzrə hedc alətlərindən istifadə edir. Hedc alətlərinin müddəti, dəyəri və kontragentin öhdəliklərini icra etməsi ilə bağlı qalıq risklər isə maliyyə nəticələrinə və likvidliyə təsir göstərə bilər.

4.2.5. Faiz dərəcəsi, rəqabət və gəlirlilik riski

Maliyyələşmə dəyərinin artması, rəqabət səbəbindən kredit gəlirliliyinin azalması və portfel artımının planlaşdırılan səviyyədən aşağı qalması emitentin faiz marjasını və mənfəətini zəiflədə bilər. Emitent maliyyələşmə xərclərini, məhsulların qiymətlənməsini, portfel gəlirliliyini və əməliyyat səmərəliliyini izləyir. Gəlirliliyin davamlı azalması daxili maliyyə resurslarını və borc öhdəliklərinin icrası imkanlarını məhdudlaşdıra bilər.

4.2.6. Makroiqtisadi və geosiyasi risklər

İqtisadi aktivliyin zəifləməsi, inflyasiya və əhalinin real gəlirlərinin azalması borcalanların ödəmə qabiliyyətinə təsir göstərə bilər. Regional gərginliklər, ticarət və nəqliyyat məhdudiyyətləri, yanacaq və digər istehsal resurslarının bahalaşması xüsusilə kənd təsərrüfatı və kiçik biznes müştərilərinin xərclərini artıra bilər. Emitent bu amilləri kredit qiymətləndirilməsi və portfel monitorinqində nəzərə alır. Uzunmüddətli və əhəmiyyətli mənfi dəyişikliklər kredit keyfiyyətinə, gəlirlərə və likvidliyə təsir göstərə bilər.

4.2.7. Hüquqi və tənzimləyici risklər

Kapital, ehtiyatlar, kreditləşmə, qiymətlənmə, istehlakçı hüquqlarının müdafiəsi, ƏL/TM, informasiya təhlükəsizliyi və hesabatlılıq tələblərinin dəyişməsi əlavə xərclər və proses dəyişiklikləri tələb edə bilər. Tələblərin icrasında gecikmələr və ya çatışmazlıqlar sanksiyalar və fəaliyyət məhdudiyyətləri riski yaradır. Hüquqi mübahisələr də əlavə xərc və öhdəliklərə səbəb ola bilər.

Emitent tənzimləyici dəyişiklikləri və uyğunluq vəziyyətini izləyir, zəruri tədbirlər müəyyən edir və onların icrasına nəzarət edir. Xarici xidmət təminatçılarından asılı olan dəyişikliklərin gecikməsi də daxil olmaqla, əhəmiyyətli uyğunsuzluqlar maliyyə nəticələrinə və ödəniş qabiliyyətinə mənfi təsir göstərə bilər.

4.2.8. Əməliyyat, informasiya texnologiyaları və kibertəhlükəsizlik riskləri

Emitentin fəaliyyəti əsas bank sistemi, inteqrasiyalar və üçüncü tərəf xidmətlərindən asılıdır. Sistem nasazlıqları, insan səhvləri, fırıldaqçılıq və kiberhadisələr xidmət fasilələrinə, məlumatların məxfiliyinin pozulmasına və maliyyə itkilərinə səbəb ola bilər.

Emitent daxili nəzarət, RCSA, insidentlərin qeydiyyatı və monitorinqi, daxili audit və informasiya təhlükəsizliyi tədbirlərini tətbiq edir. İnfrastrukturun və bərpa imkanlarının təkmilləşdirilməsi risklərin azaldılmasına yönəlmişdir. Bununla belə, uzunmüddətli fasilələr kreditlərin verilməsini və yığılmasını gecikdirərək gəlirlərə və pul axınlarına təsir göstərə bilər.

4.2.9. Hesablaşma və kontragent riski.

Bankların, ödəniş xidməti təminatçılarının, hedc kontragentlərinin və digər tərəfdaşların öhdəliklərini vaxtında icra etməməsi hesablaşmaları və vəsaitlərə çıxışı gecikdirə bilər. Emitent əməkdaşlıqdan əvvəl risk əsaslı qiymətləndirmə aparır və

münasibətləri müqavilələr və monitorinq vasitəsilə idarə edir. Əhəmiyyətli kontragent və xidmət pozuntuları likvidliyə və istiqraz ödənişlərinə təsir göstərə bilər.

5. TƏKLİF

5.1. İstiqraz emissiyası zamanı aşağıdakı məlumatlar təqdim edilməlidir

5.1.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi;

Emissiyadan cəlb ediləcək vəsait əsasən Cəmiyyətin kredit fəaliyyətinin genişləndirilməsi məqsədilə istifadə olunacaqdır. Vəsait mikro, kiçik və orta sahibkarlıq subyektlərinin maliyyələşdirilməsi, kənd təsərrüfatı kreditləri üzrə kredit portfelinin artırılmasına, habelə Cəmiyyətin maliyyələşdirmə mənbələrinin diversifikasiyasına və ümumi fəaliyyətinin davamlı inkişafının təmin edilməsinə yönəldiləcəkdir. Vəsaitin müvafiq istiqamətlər üzrə bölgüsü bazar şəraiti, müştəri tələbi və Cəmiyyətin biznes ehtiyaclarından asılı olaraq müəyyən ediləcəkdir.

5.1.2. Təklifin şərtlərinin təsviri: İstiqrazların yerləşdirilməsi "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. Baza Emissiya Prospekti Mərkəzi Bank tərəfindən təsdiq edildikdən sonra hər bir istiqraz buraxılışı üzrə yerləşdirmənin başlanma və başa çatma tarixləri və ya həmin tarixlərin müəyyən edilməsi qaydası həmin buraxılışın Yekun Şərtlərində müəyyən olunacaqdır. Hər bir buraxılış üzrə Yekun Şərtlər Mərkəzi Bank tərəfindən qeydiyyata alındıqdan sonra abunə yazılışına 7 (yeddi) iş günündən sonrakı tarixdə başlanılması nəzərdə tutulur. Abunə yazılışının başlanması və bitmə tarixləri, habelə istiqrazların yerləşdirilməsi tarixləri ictimaiyyətə Emitentin, BFB-nın və buraxılışın anderrayteri "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC-nin rəsmi saytları və ya KİV-lər vasitəsilə açıqlanacaqdır.

Abunə yazılışının keçirilmə müddəti 10 (on) iş günü təşkil edəcəkdir. Abunə yazılışı başa çatdıqdan sonra istiqrazların yerləşdirilməsinə 5 (beş) iş günü ərzində başlanılacaq və istiqrazların yerləşdirilməsi başlandığı tarixdən etibarən 7 (yeddi) iş günü ərzində həyata keçiriləcəkdir. Ümumi kağızların yerləşdirilməsi qanunvericilikdə nəzərdə tutulmuş qaydalara əsasən tamamlanacaqdır.

5.1.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat: Emissiyada aşağıdakı şəxslər iştirak edir və onlar arasında maraqlar toqquşması mövcud deyil.

"Bakı Fond Birjası" QSC. Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya ediləcək istiqrazların ticarətə qəbul edilməsi , listinqə daxil edilməsi, listinqdə saxlanılması, yerləşdirilməsi, həmçinin təkrar bazarda alğı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların abunə yazılışı vasitəsilə yerləşdirilməsi üçün müvafiq ticarət sisteminin təmin edilməsi;
- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi.

"Milli Depozit Mərkəzi". Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

"PAŞA Kapital İnvestisiya Şirkəti" QSC (öhdəlik götürmədən anderrayter). 09 mart 2016-cı il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bank tərəfindən investisiya şirkəti fəaliyyətini həyata keçirilməsi üçün verilmiş ISN/L-640/2016 nomrəli lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində anderrayterin vəzifələri aşağıdakılardır:

- Emitentin iqtisadi və maliyyə vəziyyətinin təhlilini aparmaq;
- Qiymətli kağızlar bazarından pul vəsaiti cəlb etmə imkanlarını araşdırmaq;
- İstiqrazların yerləşdirilməsi üzrə abunə yazılışı zamanı toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
- Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alğı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək.

"PAŞA Kapital İnvestisiya Şirkəti" QSC
Lisenziya nömrəsi:İSN/L-640/2016 nömrəli 09 mart 2016-cı il tarixli.
Lisenziya verilmə tarixi: 09.03.2016
Ünvanı: AZ1065, Cəfər Cabbarlı küç. 44 (Caspian Plaza), Bakı, Azərbaycan
VÖEN: 1402281511
Tel: (+ 994 12) 493-33-66 | (+ 994 12) 493-33-88
Email: office@pashacapital.az
www.pashacapital.az

5.1.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:

Vergilər. İstiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. Hüquqi şəxs olan istiqraz mülkiyyətçilərinin istiqrazlar üzrə faiz gəlirindən Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 123-cü maddəsinə müvafiq olaraq ödəniş mənbəyindən 10 (on) faiz vergi tutulur (Vergi Məcəlləsinin 123.1-ci maddəsində nəzərdə tutulan şəxslər istisna olmaqla).

Bununla yanaşı, AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi

qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

Xərclər. İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:
Bakı Fond Birjası - əqdin həcmindən 0.02%;
Milli Depozit Mərkəzi – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
İnvestisiya şirkətləri – investisiya şirkəti ilə investor arasında bağlanmış müqavilə əsasında;
Bank köçürmə xərcləri – bankdan aslı olaraq dəyişir.

İSTİQRAZLARIN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT

6. EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT

6.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:

Maliyyə ili	Auditorun adı	Ünvanı	Audit təşkilatında üzvlüyü barədə məlumat
2025	BDO Azerbaijan MMC	Bakı, Azure Business Center 20-ci mərtəbə	AR Auditorlar Palatası üzvüdür
2024	BDO Azerbaijan MMC	Bakı, Azure Business Center 20-ci mərtəbə	AR Auditorlar Palatası üzvüdür
2023	BakerTilly Audit Azərbaycan QSC	Bakı, City Point 9-cu mərtəbə	AR Auditorlar Palatası üzvüdür

6.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:

Son üç il ərzində Emitentin kənar auditoru dəyişdirilmişdir. 2024-cü ilədək Emitentin kənar auditi "Baker Tilly Azerbaijan" MMC tərəfindən həyata keçirilmiş, 2024-cü ildən etibarən isə "BDO Azerbaijan" MMC kənar auditor qismində seçilmişdir. Dəyişiklik "Baker Tilly Azerbaijan" MMC-nin altı il ərzində Emitentin auditini həyata keçirməsindən sonra audit rotasiyasının təmin edilməsi və Azərbaycan Respublikasının Mərkəzi Bankının kənar auditorun eyni təşkilatda uzun müddət fəaliyyət göstərməməsinə dair gözləntilərinin nəzərə alınması məqsədilə həyata keçirilmişdir. b

7. SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI

7.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:

Emitentin 2026-ci il üzrə hesabatları audit edilməyib.

Göstəricilər	2025 (audit olunmuş)	2024 (audit olunmuş)	2023 (audit olunmuş)
Mənfəət/Zərər (vergidən əvvəl)	1,938,000	3,470,000	4,513,000
Xalis mənfəət (vergidən sonra)	1,620,000	3,155,000	3,908,000
Cəmi öhdəliklər	57,571,000	58,284,000	44,097,000
Cəmi kapital	17,458,000	18,094,000	17,866,000
Cəmi aktivlər	75,029,000	76,378,000	61,963,000
Kredit Portfeli	66,815,000	67,639,000	59,900,000
Pul vəsaitləri	6,582,000	8,507,000	2,725,000

2026-ci il maliyyə hesabatları auditor tərəfindən təsdiq olunmadığı üçün, yalnız 6 aylıq maliyyə göstəriciləri müqayisəli verilir:

Göstəricilər	2026 (6 ay)	2025 (6 ay)
Mənfəət/Zərər (vergidən əvvəl)	**799,861**	**753,716**
Xalis mənfəət (vergidən sonra)	**998,521**	**813,216**
Cəmi öhdəliklər	**56,887,773**	**53,173,592**
Cəmi kapital	**18,546,562**	**18,907,142**
Cəmi aktivlər	**75,344,336**	**72,080,734**
Kredit Portfeli	**66,283,488**	**70,394,357**
Pul vəsaitləri	**8,711,959**	**4,337,978**

8. EMİTENT BARƏDƏ MƏLUMAT

8.1. Emitentin tam adı, təşkilati-hüquqi forması:
"FİNCA AZERBAİJAN" MƏHDUD MƏSULİYYƏTLİ QEYRİ-BANK KREDİT TƏŞKİLATI

8.2. Emitentin dövlət qeydiyyatının rekvizitləri: 25.11.1999- cu il VÖEN 1400494391

8.3. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:
Emitentin təşkilati-hüquqi formasında dəyişiklik baş verməmişdir;

8.4. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:
Hüquqi ünvanı: AZ1014, BAKI ŞƏHƏRİ NƏSİMİ RAYONU, FÜZULİ, ev.67
Faktiki ünvanı: AZ1065, Bakı şəh., C.Cabbarlı 44, Caspian Plaza, 3-cü korpus, 8-ci mərtəbə
Telefon: (+99412) 596-33-84
İnternet səhifəsi: www.finca.az
Elektron poçt ünvanı: info@finca.az

8.5. Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə): Mövcud deyil

8.6. İdarəetmə orqanlarının Emitentin gələcək investisiyaları ilə bağlı öhdəliklər və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat: Mövcud deyil.

8.7. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:
Emissiya ediləcək istiqrazlar "Bakı Fond Birjası" (BFB) Qapalı Səhmdar Cəmiyyətində yerləşdiriləcəkdir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tərixli "fond birjası fəaliyyati"-ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlər və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB Qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarəti təşkil edir.

Yerləşdiyi ünvan: City Point Biznes Mərkəzi, Cəlil Məmmədquluzadə küç, 102A, Bakı, Azərbaycan
Elektron poçt ünvanı: info@bse.az
Internet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az
Tel: +994 12 498 98 20

BFB-nin fəaliyyəti Azərbəycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlər bazarı həqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

9. EMİTENTİN BİZNESİNİN İCMALI

9.1. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:
"FİNCA AZERBAİJAN" MM QBKT Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər.

Təşkilatın məqsədi Azərbaycan Respublikasında fəaliyyət göstərən mikro, kiçik və orta ölçülü biznes müəssisələrinə, həmçinin satış sahəsində və kiçik miqyaslı istehsal sahəsi üzrə mikro müəssislərdə fəaliyyət göstərən fiziki şəxslərə və ya fiziki şəxslərdən ibarət olan qruplara kreditlərin verilməsi də daxil olmaqla maliyyə xidmətləri göstərməkdi.

Kredit portfelinin bölgüsü aşağıdaki kimidir:

	31.12.2025	**31.12.2024**	**31.12.2023**
Kənd təsərrüfatı üzrə kreditlər	37,138,000	34,917,000	33,750,000
Xidmət kreditləri	17,859,000	19,343,000	17,193,000
Ticarət kreditləri	6,737,000	7,090,000	7,005,000
İstehlak kreditləri	3,012,000	4,567,000	-
Digər kreditlər	2,069,000	1,722,000	1,952,000
Ümumi müştərilərə verilmiş kreditlər	**66,815,000**	**67,639,000**	**59,900,000**
Çıxılsın: ehtimal olunan kredit zərərləri üzrə ehtiyat	(3,859,000)	(3,719,000)	(3,359,000)
Cəmi müştərilərə verilmiş kreditlər, xalis	**62,956,000**	**63,920,000**	**56,541,000**

9.2. Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:

Hesabat dövründə "FINCA Azerbaijan" BOKT MM müştərilərə xidmət göstərilməsi kanallarının genişləndirilməsi istiqamətində addımlar atmışdır. Belə ki, əvvəllər kreditlərin satışı yalnız çağrı mərkəzi kanalı vasitəsilə həyata keçirildiyi halda, hesabat dövründə bu prosesə əlavə kanal kimi filiallar da qoşulmuşdur. Bununla, müştərilərə həm məsafədən (çağrı mərkəzi vasitəsilə), həm də birbaşa filiallara müraciət etməklə kredit əldə etmək imkanı yaradılmışdır. Filial kanalının satış prosesinə qoşulması müştərilərə xidmətin əlçatanlığının artırılmasına, müraciət prosesinin sadələşdirilməsinə və Emitentin müştəri bazasının genişləndirilməsinə xidmət edir. Hesabat tarixinə bu kanal üzrə satış prosesi aktiv şəkildə tətbiq olunur.

9.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri:

Təşkilat əsasən mikro biznes kredit bazarında rəqabət aparır. 2026-ci ilin ilk ayın yekununa əsasən, BOKT sektoru Azərbaycanda bank sistemindən kənar alternativ maliyyələşmənin əsas kanallarından birinə çevrilib, 2019 cu ildən başlayaraq artım tempini qorumuş və 2024-2025 ci illərdə bu temp daha da sürətlənib və 2026-ci ilin ilk yarısındada davam etmişdir. Ümumi

aktivlər 2019 cu ilin sonu 342,6 mln manatdan 2026-ci ilin ilk yarısındada 1.528,3 mln manata yüksəlib ki, bu təxminən 4,5 dəfə artım deməkdir. Sektorun əsas biznes modeli kreditləşmədir. Müştərilərə verilən kreditlər 268,8 mln manatdan 1.317 mln manata yüksəlib ki, bu da 4,9 dəfə artım deməkdir. Bundan əlavə BOKT sektoru üzrə Kapital bazası da əhəmiyyətli dərəcədə güclənib. Nizamnamə kapitalı 2019 cu ilin sonu 110,2 mln manatdan 2026-ci ilin ilk yarısındada 352,1 mln manata, bölüşdürülməmiş mənfəət 9 mln manatdan 313,7 mln manata çatmışdır. Bu da müvafiq olaraq 3,8 və 35 dəfə artım deməkdir. BOKT-ların investisiya fəaliyyəti də stabil artım nümayiş etdirərək 103,6 manata çatmışdır. Nəğd vəsaitlər və banklardakı cari hesablar kimi likvidlik göstəricilərində də artım müşahidə olunmuşdur ki, bu da təşkilatların operativ ehtiyaclarını qarşılamaq üçün kifayət qədər likvidliyə malik olduğunu deməyə əsas verir. (qeyd: Məlumat Azərbaycan Respublikasının Mərkəzi Bankının BOKT -nın icmal balansı bölməsindən götürülmüşdür).

9.4. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması: Finca Azerbaijan MM QBKT BOKT sektorunun kredit portfeli üzrə 4.95%-nə sahibdir. Bundan əlavə faiz gəlirləri 2026-ci ilin ilk yarısına 11.0 mln AZN ilə ümumi BOKT fazi gəlirləri üzrə bazar payının 6.9 %-nə bərabərdir. Xalis mənfəət üzrə isə 121.2 milyon AZN olan cəmi məbləğin 1.0 milyon AZN-i Finca Azerbaijan MM QBKT-nın payına düşür. Rəqəmlərdən də anlaşıldığı kimi Finca Azerbaijan MM QBKT bazarın əsas iştirakçısıdır və sağlam böyüyərək bazarda daha böyük pay sahibi olmağa iddialıdır. Emitentin rəqabət mövqeyinə dair bəyanat məlumatları göstərilən linkdə yerləşdirilmiş məlumatlara əsaslanır.

	30.06.2026	31.12.2025	31.12.2024
BOKT sektorunun kredit portfeli	**1,317,000,000**	**1,045,100,000**	**808,300,000**
Finca Azerbaijan MM QBKT-nin kredit portfeli	**65,216,000**	**66,815,000**	**67,639,000**
" Finca Azerbaijan" kredit portfelinin cəmi BOKT portfelində payı	**4.95%**	**6.40%**	**8.40%**

Qeyd: BOKT sektorunun kredit portfeli üzrə göstəricilər Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi internet səhifəsində yayımlanan Maliyyə Sektorunun Statistikası məlumatlarından əldə edilmişdir (https://www.cbar.az/page-188/credit-institutions). Təhlillər və müqayisələr həmin rəsmi statistik məlumatlar əsasında aparılmışdır.

10. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK

10.1.Emitentin digər hüquqi şəxslərdə qısa təsviri: Emitentin heç bir hüquqi şəxsdə iştirakı mövcud deyildir.

10.2. Emitent daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi:

"FINCA AZERBAİJAN" Qeyri-Bank Kredit Təşkilatı "FINCA Impact Finance" qlobal şəbəkənin tərkibinə daxildir. Qlobal təşkilat Azərbaycandakı törəməsinə proses və prosedurların təkmilləşdirilməsində dəstək göstərir. Lakin FİNCA Azerbaijan Azərbaycandakı fəaliyyətini müstəqil şəkildə həyata keçirir və bütün strateji qərarları İdarə Heyəti verməklə təşkilatın Direktorlar Şurası tərəfindən təsdiqlənir. Emitent əsas şirkətdir.

Adı Soyadı	Vəzifə

Zarlasht Wardak	Direktorlar Şurasının Sədri
Jerrold Smelcer	Direktorlar Şurasının üzvü
Norbert Benker	Direktorlar Şurasının üzvü
Meral Kurdash	Direktorlar Şurasının üzvü
Fisnik Kepuska	Direktorlar Şurasının üzvü

11. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT

11.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin baza emissiya prospektində mənfi dəyişiklik olmadığı barədə məlumat: Göstərilən tarixdən etibarən müəssisənin fəaliyyətinə mənfi təsir edəcək hər hansı bir hal baş verməmişdir.

11.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:

Emitent cari maliyyə ili ərzində mənfəətliliyinin artırılması və cəmləşmə risklərinin minimuma endirilməsi məqsədilə yeni tərəfdaşlarla əməkdaşlıq əlaqələrinin genişləndirilməsi istiqamətində fəaliyyətini davam etdirir. Emitentin kredit portfeli ənənəvi olaraq kənd təsərrüfatı sektoruna üstünlük verməklə formalaşmışdır ki, bu da sektor üzrə cəmləşmə riskini şərtləndirir. Ölkədə həyata keçirilən pul-kredit siyasətinin sabitliyi maliyyə sektorunda fəaliyyət göstərən təşkilatların səmərəli fəaliyyətinə əlverişli şərait yaratmışdır. Hesabat tarixində emitentin fəaliyyətinə əhəmiyyətli təsir göstərə biləcək hər hansı ciddi bazar qeyri-müəyyənliyi və ya gözlənilən mənfi hadisə məlum deyil. Emitentin öhdəlikləri əsasən cari əməliyyat fəaliyyəti ilə əlaqədar yaranmış öhdəliklərdən ibarətdir və onlar müəyyən edilmiş müddətlərdə vaxtında icra olunur. Bununla yanaşı, emitent fəaliyyətinin dayanıqlılığının təmin edilməsi, maliyyə göstəricilərinin yaxşılaşdırılması və risklərin effektiv idarə olunması istiqamətində tədbirləri davam etdirir.

12. GƏLİR PROQNOZU

Mövcud deyil.

13. EMİTENTİN İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI

13.1. Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:

Təşkilatın ali İdarəetmə orqanı (İştirakçıların Ümumi Yığıncağı) barədə məlumat:

Adı	Vətəndaşlığı	Səhmlərin sayı	Nizamnamə Kapitalında faiz nisbəti
FINCA Microfinance Coöperatief U.A.	Niderland Krallığı	1	100.00%

Emitentin təkbaşına icra orqanı olan direktor barədə məlumat:

Adı, soyadı, atasının adı	Vətəndaşlığı	Funksiyaları
Zaur Nurməmmədov	Azərbaycan	- Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirir; - Təsisçi adından verilmiş etibarnamə ilə Təşkilatın adından öz səlahiyyəti daxilində çıxış edir, onun bütün dövlət hakimiyyəti və yerli özünüidarə orqanları, kommersiya və qeyri-kommersiya təşkilatları qarşısında, o cümlədən məhkəmələrdə iddiaçı və cavabdeh qismində təmsil edir; - Ümumi yığıncaq tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazimi qaydada icra olunmasını təmin edir; - Təşkilatın nizamnaməsi ilə nəzərdə tutulmuş digər səlahiyyətləri icra edir.

Emitentin Müşahidə Şurası barədə məlumat: Müşahidə Şurası (bundan sonra, "Şura") Təşkilatın icra orqanının fəaliyyətinə nəzarəti həyata keçirən orqandır. Müşahidə Şurası ən azı üç üzvdən ibarət olmaqla, formalaşır. Şuranın üzvləri Ümumi Yığıncaq tərəfindən iştirakçılardan və ya kənar şəxslərdən üç il müddətinə, Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq olaraq təyin edilən fiziki şəxslərdir.

Adı Soyadı	Vəzifə
Zarlasht Wardak	Direktorlar Şurasının Sədri
Jerrold Smelcer	Direktorlar Şurasının üzvü
Norbert Benker	Direktorlar Şurasının üzvü
Meral Kurdash	Direktorlar Şurasının üzvü
Fisnik Kepuska	Direktorlar Şurasının üzvü

13.2. Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə Mülki Məcəllənin 49-1.6- cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı təşkilatın Müşahidə Şurasına, o olmadıqda, səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər.

14. İDARƏ HEYƏTİNİN İŞGÜZAR PRAKTİKASI

14.1. Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:

Emitentin mükafatlandırma komitəsi mövcud deyildir. Audit komitəsinin üzvləri:

Adı Soyadı	Vəzifə	Funksiyaları
Jerrold Smelcer	Risk və Audit komitəsinin Üzvü	Daxili auditin fəaliyyətinə nəzarət edir, risklərin idarə olunmasına və daxili nəzarət sisteminə nəza rət edir
Fisnik Kepuska	Risk və Audit komitəsinin Üzvü	Daxili auditin fəaliyyətinə nəzarət edir, risklərin idarə olunmasına və daxili nəzarət sisteminə nəza rət edir

14.2. Emitentin, qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə izahat: Emitentin idarəetmə forması Mülki Məcəllə və ona müvafiq hazırlanmış nizamnaməsi əsasında müəyyən edilir və tənzimlənir.

15. EMİTENTİN NİZAMNAMƏ KAPİTALINDA MÜHÜM İŞTİRAK PAYINA SAHİB OLAN ŞƏXSLƏR

15.1. Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti:

Adı	Vətəndaşlığı	Səhmlərin sayı	Nizamnamə Kapitalında faiz nisbəti
FINCA Microfinance Coöperatief U.A.	Niderland Krallığı	1	100.00%

15.2. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:

Emitentin ümumi fəaliyyətinə nəzarəti Səhmdarların Ümumi Yığıncağı və Müşahidə Şurası emitentin nizamnaməsinə və AR Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirir. Müəssisənin nizamnamə kapitalı 100 (bir yüz) % payla bir şəxsə məxsusdur. Azərbaycan Respublikası Mərkəzi Bankının təsdiq etdiyi "Bank olmayan kredit təşkilatlarının fəaliyyətinin prudensial tənzimlənməsi Qaydası"nın 7.2-ci bəndinə əsasən aidiyyəti şəxslərə digər müştərilərdən fərqli olaraq güzəştli kreditlərin verilməsi və ya güzəştli şərtlərlə digər əməliyyatların aparılması qadağandır. Eyni zamanda, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49.1-ci maddəsində aidiyyəti şəxslərlə əqdlərin bağlanması qaydası nəzərdə tutulmuşdur.

15.3. Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat: Mövcud deyil

16. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI

16.1. Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:

MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
31 DEKABR 2025-Cİ İL TARİXİNƏ
(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
AKTİVLƏR:		
Pul vəsaitləri və onların ekvivalentləri	6,582	8,507
Müştərilərə verilmiş kreditlər	62,956	63,920
Əmlak, avadanlıq və qeyri-maddi aktivlər	2,159	961
İstifadə hüquqlu aktivlər	1,477	1,020
Təxirə salınmış mənfəət vergisi aktivləri	619	566
Cari mənfəət vergisi	224	529
Digər aktivlər	1,012	875
CƏMİ AKTİVLƏR	**75,029**	**76,379**
ÖHDƏLİKLƏR VƏ KAPİTAL		

ÖHDƏLİKLƏR:		
Borc alınmış vəsaitlər	35,232	47,666
Buraxılmış borc qiymətli kağızları	18,446	7,281
İcarə öhdəlikləri	1,567	1,078
Digər öhdəliklər	2,326	2,259
CƏMİ ÖHDƏLİKLƏR	**57,571**	**58,284**
KAPİTAL:		
Nizamnamə kapitalı	3,756	3,756
Bölüşdürülməmiş mənfəət	13,702	14,338
CƏMİ KAPİTAL	**17,458**	**18,094**
CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL	**75,029**	**76,379**

MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
(Əksi qeyd edilmədiyi halda, Azərbaycan manatı ilə)

	2025	**2024**
Faiz gəliri	21,196	20,361
Faiz xərci	(6,955)	(5,212)
Ehtimal olunan kredit zərərlərindən əvvəl xalis faiz gəliri	**14,241**	**15,149**
Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərləri xərci	1,457	2,083
Ehtimal olunan kredit zərərlərindən sonra xalis faiz gəliri	**15,698**	**17,232**
İnzibati və əməliyyat xərcləri	(13,197)	(13,160)
Xarici valuyta törəmələri üzrə xalis nəticələr	(547)	(692)
Geri alınmış girovların ədalətli dəyərində dəyişiklikdən zərər	-	(1)
Digər gəlir/(xərc), xalis	(16)	90
Qeyri-faiz üzrə xalis zərər	**(13,760)**	**(13,763)**
Mənfəət vergisindən əvvəl mənfəət	**1,938**	**3,470**
Mənfəət vergisi xərci	(318)	(315)
İl üzrə xalis mənfəət	**1620**	**1620**
İl üzrə cəmi məcmu gəlir	**1,620**	**3,155**

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
(Əksi qeyd edilmədiyi halda, Azərbaycan manatı ilə)

	Nizamnamə kapitalı	Bölüşdürülməmiş mənfəət	Cəmi kapital mənfəət
1 yanvar 2024-cü il	**3,756**	**14,110**	**17,866**
İl üzrə cəmi məcmu gəlir	-	3,156	3,156
Elan edilmiş dividendlər	-	(2,928)	(2,928)
31 dekabr 2024-cü il	**3,756**	**14,338**	**18,094**
İl üzrə cəmi məcmu gəlir	-	1,620	1,620
Elan edilmiş dividendlər	-	(2,256)	(2,256)
31 dekabr 2025-ci il	**3,756**	**13,702**	**17,458**

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
(Əksi qeyd edilmədiyi halda, Azərbaycan manatı ilə)

		31 dekabr 2025-ci il tarixində başa çatan il üzrə		31 dekabr 2024-cü il tarixində başa çatan il üzrə
ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİNDƏN PUL AXINLARI:				
Vergidən əvvəl mənfəət		1,938		3,470
Nağdsız maddələr üzrə düzəlişlər:				
Gözlənilən kredit zərərlərinin bərpası		(1,457)		(2,082)
Amortizasiya və köhnəlmə xərci		904		1,038
Yığılmış faizlər üzrə xalis dəyişiklik		(27)		221
Xarici valyuta törəmələri üzrə tanınmamış zərər		(73)		(405)
Geri alınmış girovların ədalətli dəyərində dəyişiklikdən zərər		-		(1)

Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətlərindən xalis pul axını	**1,285**	**2,241**
Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər:		
Müştərilərə verilmiş kreditlər, xalis	1,263	(5,296)
Digər aktivlər	(97)	(600)
Digər öhdəliklər	639	68
Əməliyyat fəaliyyətlərindən xalis pul çıxışı	**3,090**	**(3,587)**
İNVESTİSİYA FƏALİYYƏTLƏRİNDƏN PUL AXINLARI:		
Əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə ödənişlər	(1,413)	(685)
İnvestisiya fəaliyyətlərindən xalis pul çıxışı	**(1,413)**	**(685)**
MALİYYƏ FƏALİYYƏTLƏRİNDƏN PUL AXINLARI:		
Cəlb edilmiş vəsaitlərdən daxilolmalar	8,701	29,350
Cəlb edilmiş vəsaitlərin geri ödənilməsi	(21,617)	(13,825)
Cəlb edilmiş vəsaitlər üzrə ödənilmiş əməliyyat xərcləri	(77)	(121)
Buraxılmış borc qiymətli kağızlarından daxilolmalar	13,826	4,250
Buraxılmış borc qiymətli kağızlarının geri ödənilməsi	(1,499)	(6,000)
Buraxılmış borc qiymətli kağızları üzrə ödənilmiş əməliyya xərcləri	(141)	(62)
İcarə öhdəliklərinin əsas məbləğinin ödənilməsi	(539)	(610)
Ödənilmiş dividendlər	(2,256)	(2,928)
Maliyyə fəaliyyətlərindən xalis pul axını	**(3,602)**	**10,054**
Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım/(azalma)	**(1,925)**	**5,782**
PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, ilin əvvəlində	**8,507**	**2,725**

PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, ilin sonunda	6,582	8,507

16.2. Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları: Emitent 1999-cu ildə yaradılıb və 27 ildir fəaliyyət göstərir.

16.3. Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir: Maliyyə hesabatları MHBS-ə uyğun olaraq hazırlanmışdır.

16.4. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda): "Finca Azerbaijan" MM QBKT-də Konsolidasiya olunmuş maliyyə hesabatı hazırlanmır;

16.5. Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarım illik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar baza emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir:

Emitentin rüblük (yarımillik) maliyyə hesabatı bu baza emissiya prospektinə əlavə olunur. Yarımillik hesabat audit olunmur.

(min manatla)

	BALANS HESABATI	**2026-cı il 6 ay**	**2025-ci il 6 ay**
	AKTİVLƏR		
1	Nağd vəsait və hesab qalıqları	**5,212.00**	**4,337.98**
1.1	Nağd vəsait	-	17.05
1.2	Cari hesablar	5,212.00	4,320.93
2	Banklarda yerləşdirilmiş müddətli depozitlər	**3,500.00**	
2.3.1	Rezident	3,500.00	
2.3.2	Qeyri rezident		
3	İnvestisiyalar		
4	Qiymətli kağızlar		
4,1	Dövlət qiymətli kağızları		
4,2	Korporativ qiymətli kağızları		
5	Müştərilərə verilən kreditlər	65,552.57	69,011.60
5,1	Müştərilərə verilən kreditlər üzrə mümkün zərərlərin ödənilməsi uçün xüsusi ehtiyat	4,665.41	4,848.61
5,2	Xalis kreditlər (5-ci sətir çıx 5.1-ci sətir)	**60,887.16**	**64,162.99**

6	Maliyyə institutlarına verilən kreditlər		
6,1	Maliyyə institutlarına verilən kreditlər üzrə mümkün zərərlərin ödənilməsi uçün xüsusi ehtiyat		
6,2	Maliyyə institutlarına xalis kreditlər (6-cı sətir çıx 6.1-ci sətir)		
7	Əsas vəsaitlər (amortizasiya çıxılmaqla)	1,487.51	1,273.21
7,1	BOKT işində istifadə olunan əsas vəsaitlər	1,487.51	1,273.21
8	Balansdankənar aktivlər üzrə mümkün zərərlərinin ödənilməsi üçün xüsusi ehtiyatlar		
9	Qeyri-maddi aktivlər (amortizasiya çıxılmaqla)	1,981.66	935.81
10	Digər aktivlər (ehtiyat çıxılmaqla)	**2,276.01**	**1,370.74**
11	**Aktivlərin cəmi**	**75,344.34**	**72,080.73**
	ÖHDƏLİKLƏR		
1	Cəlb edilmiş vəsaitlər	**30,411.93**	**40,055.62**
1,1	Bankların kreditləri,	**9,042.00**	1,403.62
1.1.1	Rezident	9,042.00	1,403.62
1.1.2	Qeyri-rezident		
1,2	Digər maliyyə institutlarının (banklardan başqa) kreditləri	**21,369.93**	**38,652.00**
1.2.1	Rezident	332.00	130.00
1.2.2	Qeyri-rezident	21,037.93	38,522.00
1,3	Girov əmanətləri		
2	Qiymətli kağızlar	21,500.00	9,250.00
3	Mərkəzi idarəetmə orqanlarının vəsaitləri		
4	Digər öhdəliklər	**4,976.39**	3,868.90
5	**Öhdəliklərin cəmi**	**56,888.32**	**53,174.52**
6	Nizamnamə kapitalı	**3,756.00**	**3,756.00**
7	Qrantlar (artan yekunla)		
7,1	Cari ilin qrantları		
8	Bölüşdürülməmiş xalis mənfəət (zərəri)	**14,700.02**	**15,150.21**
8,1	Keçmiş illərin xalis mənfəəti (zərəri)	13,701.50	14,337.00
8,2	Cari ilin xalis mənfəəti (zərəri)	**998.52**	**813.21**
8,3	Kapital ehtiyatı		
9	Ehtiyatlar		
10	**Kapitalın cəmi**	**18,456.02**	**18,906.21**
11	**Öhdəliklər və kapital**	**75,344.34**	**72,080.73**

(min manatla)

Mənfəət və zərərlər haqqında hesabat		2026-cı il 6 ay	2025-ci il 6 ay
1	**Faiz gəlirləri, cəmi**	**10,102.17**	**10,349.26**
1,1	Verilmiş kreditlər üzrə		
1.1.1	Sənaye		
1.1.2	Kənd təsərrüfatı	10,013.25	10,348.77
1.1.3	Tikinti		
1.1.4	Nəqliyyat		
1.1.5	İnformasiya və Rabitə		
1.1.6	Ticarət		
1.1.7	Digər qeyri-istehsal və xidmət sahəsi		
1.1.8	Şəxsi məqsədlər üçün fiziki şəxslərə		
1.1.8.1	Yaşayış sahəsinin alınması		
1.1.8.2	Yaşayış sahəsinin tikintisi və təmirinə		
1.1.8.3	Şəxsi istehlak		
1.1.8.4	Avtomobil		
1.1.8.5	Digər		
1,2	Maliyyə institutlarına verilən kreditlər üzrə gəlirlər		
1,3	İnvestisiyalar üzrə gəlirlər		
1,4	Qiymətli kağızlar üzrə gəlirlər, cəmi		
1.4.1	dövlət qiymətli kağızları		
1.4.2	korporativ qiymətli kağızları		
1.5	Faizli cari hesablar üzrə gəlirlər		
1.6	Maliyyə müəssələrindəki depozitlər üzrə gəlirlər, o cümlədən,	88.92	0.49
1.6.1	qeyri-rezident maliyyə müəssilərindəki depozitlər üzrə gəlirlər	88.92	0.49
2	**Faiz xərcləri cəmi:**	**3,628.72**	**3,421.50**
2.1	banklardan cəlb olunmuş kreditlər		
2.2	digər maliyyə müəssisələrinin kreditləri	3,628.72	3,421.50
2.3	girov əmanətləri üzrə		
2.4	qiymətli kağızlar üzrə		
2.5	digər faiz xərcləri	-	
3	**Xalis faiz gəliri (zərər) (1-ci sətir çıxılsın 2-ci sətir)**	**6,473.45**	**6,927.76**
4	**Qeyri-faiz gəlirləri, cəmi**	**578.48**	**194.91**
4.1	məzənnə dəyişməsindən xalis gəlir (itki), cəmi	(349.17)	(221.46)
4.2	digər qeyri-faiz gəlirləri	927.65	416.37
5	**Qeyri-faiz xərcləri, cəmi**	**6,413.35**	**6,578.35**
5.1	əmək haqqı və digər kompensasiya növləri, cəmi	**4,306.29**	**4,307.38**
5.1.1	əmək haqqı	3,622.05	3,594.01

5.1.2	mükafatlar, kompensasiya və müavinətlərin digər növləri	130.49	144.05
5.1.3	məşğulluq fonduna ayırmalar daxil olmaqla sosial təminat xərcləri	553.75	569.32
5.2	BOKT-nin fəaliyyətində istifadə olunan əsas vəsaitlərlə bağlı xərclər, cəmi	**609.86**	**559.53**
5.2.1	icarə haqları	15.38	40.72
5.2.2	amortizasiya	538.76	455.56
5.2.3	əsas vəsaitlərin saxlanması üçün maddi-texniki təminat xərcləri	2.93	2.84
5.2.4	əsas vəsaitlərlə bağlı sair xərclər	52.79	60.41
5.3	göstərilmiş xidmətlər üzrə haqqlar	501.06	525.96
5.4	digər qeyri-faiz xərcləri	996.14	1,185.48
6	**Əməliyyat mənfəəti (zərəri) (sətir 3 üstəgəl sətir 4 çıx sətir 5)**	**638.58**	**544.32**
7	**Aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına ayırmalar (xərclər), cəmi (Girov əmanəti qəbul etmək hüququ olan BOKT-lər üçün)**	**(173.22)**	**(333.39)**
7.1	kredit itkiləri üzrə ehtiyata ayırmalar	(173.22)	(333.39)
7.2	investisiya və qiymətli kağızlar üzrə ehtiyata ayırmalar		
7.3	bank işində istifadə olunmayan əsas vəsaitlər üzrə ehtiyata ayırmalar		
7,4	digər aktivlər üzrə ehtiyata ayırmalar, o cümlədən		
7.4.1	faizlər üzrə ehtiyata ayırmalar		
7.5	balansdankənar aktivlər üzrə ehtiyata ayırmalar		
8	**Vergilər və gözlənilməz xərclər ödənilənədək xalis mənfəət (zərər) (sətir 6 çıx sətir 7)**	**811.80**	**877.71**
9	**Gözlənilməz fəaliyyət növlərindən və əvvəlki dövr üçün uçotdakı dəyişikliklərdən mənfəət (zərər), cəmi**	**385.38**	**(5.00)**
9.1	daşınmaz əmlakın satışından mənfəət (zərər)		
9.2	sair mənfəət (zərər)	385.38	(5.00)
10	**Vergilər ödənilənədək xalis mənfəət (zərər) (sətir 8 üstəgəl (çıx) sətir 9)**	**1,197.18**	**872.71**
11	**Mənfəətdən ödənilən vergilər**	198.66	59.50
12	**Vergilər ödənildikdən sonra xalis mənfəət (zərər) (sətir 10 çıx sətir 11)**	**998.52**	**813.21**
13	**Pul şəklində qrantlar**		
14	**Xalis mənfəət (12+13)**	**998.52**	**813.21**

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

(min manatla)

Kapitalda dəyişikliklər- Azərb. manatı ilə	2026-cı il 6 ay	2025-ci il 6 ay
Nizamnamə kapitalı	3,756.00	3,756.00
Bölüşdürülməmiş mənfəət	13,701.50	14,337.00
6 ay üzrə cəmi məcmu gəliri	998.52	813.21
Elan olunmuş dividendlər	-	-
Cəmi kapital	**18,456.02**	**18,906.21**

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

(min manatla)

ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN PUL AXINLARI:	2026-cı il 6 ay	2025-ci il 6 ay
Mənfəət vergisindən əvvəl mənfəət	1,197.18	872.71
Düzəlişlər:		
Amortizasiya	538.76	455.56
Ehtiyyatlar	(173.22)	(333.39)
Hesablanmış faizlər üzrə xalis dəyişiklik	(80.00)	(51.00)
Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəlki əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri	**1,482.72**	**943.88**
Müştərilərə verilmiş kreditlər, xalis	2,068.84	(242.99)
Digər aktivlər, xalis	(168.29)	599.26
Digər öhdəliklər, xalis	1,083.39	915.29
Mənfəət vergisinə görə ödəniş	(198.66)	(59.50)
ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN XALİS PUL AXINLARI:	**4,268.00**	**2,155.94**
İNVESTİSİYA FƏALİYYƏTİNDƏN PUL AXINLARI:		

Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin alınması	(371.93)	(683.58)
İNVESTİSİYA FƏALİYYƏTİNDƏN XALİS PUL AXINLARI:	**(371.93)**	**(683.58)**
MALİYYƏ FƏALİYYƏTİNDƏN PUL AXINLARI:		
Borc qiymətli kağızları, xalis	3,054.00	1,969.00
Bank borcları, xalis	(4,820.07)	(7,610.38)
Dividend ödənişi	-	-
MALİYYƏ FƏALİYYƏTİNDƏN XALİS PUL AXINLARI:	**(1,766.07)**	**(5,641.38)**
PUL VƏSAİTLƏRİ və EKVİVALENTLƏRİNDƏ XALİS ARTIM	**2,130.00**	**(4,169.02)**
İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri	**6,582.00**	**8,507.00**
İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri	**8,712.00**	**4,337.98**

16.6. Baza emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarım illik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:

Emitentin rüblük (yarımillik) maliyyə hesabatı bu baza emissiya prospektinin 16.5-ci bəndinə əlavə olunur . Yarımillik hesabat audit olunmur.

16.7. Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla): Emitentin fəaliyyətinə təsir edəcək hər hansı həlli gözləyən hüquqi proses(lər) mövcud deyildir

16.8. Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat: : Maliyyə hesabatlarının dərc edilməsindən Baza emissiya prospektinin tərtib edildiyi tarixə qədər emitentin maliyyə vəziyyətində hər hansı dəyişiklik baş verməmişdir.

17. EMİTENT HAQQINDA ƏLAVƏ MƏLUMATLAR

17.1. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin (payların) miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu:

Nizamnamə Kapitalının ümumi məbləği 3,756,572 (üc milyon yeddi yüz əli altı min beş yüz yetmiş iki manat) həcmindədir və hər biri 3,756,572 (üc milyon yeddi yüz əli altı min beş yüz yetmiş iki manat) manat olmaqla 1 ədəd paydan ibarətdir.

Paylarla təsbit olunan hüquqlar aşağıdakılardır:

- Təşkilatın Nizamnaməsini və Nizamnaməyə edilə biləcək əlavə və dəyişiklikləri təsdiq etmək
- Təşkilatın idarə etmə fəaliyyətində iştirak etmək
- Təşkilatın xidmətlərinnən isitfadə etmək və
- Nizamnamə ilə nəzərdə tutulmuş digər hüquqlar

17.2. Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat: : Emitentin Nizamnaməsinin son redaksiyası 13.11.2023-cı il tarixində Azərbaycan Respublikası (AR) İqtisadiyyat Nazirliyi (İN) yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

17.2.1. fəaliyyət və məqsədlərin təsviri:

Emitent müştərilərə xanım sahibkarlar üçün fərdi biznes kreditləri, fərdi təsərrüfat və biznes kreditləri, AKİA xətti ilə fərdi təsərrüfat və biznes kreditləri, aqrar sığorta və istehlak kreditləri təklif edir. Emitentin əsas misyası insanların yaşadıqları cəmiyyətdəki anlayışlarına və ehtiyaclarına əsaslanan dayanıqlı və genişlənə bilən həllər vasitəsilə yoxsulluğa son qoyur.

17.2.2. idarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı: Emitentin idarəetmə/ icra orqanı olan İdarə Heyətidir:

İdarə Heyətinin səlahiyyətlərinə aşağıdakılar aiddir:

- Təşkilatın cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirir;
- Təşkilatın daxili əmək intizamı qaydalarını, Ümumi Yığıncaq və Müşahidə Şurası tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazımi qaydada icra olunmasını təmin edir;
- Təşkilatın əməkdaşlarının vəzifə təlimatını (əmək funksiyasını) hazırlayır və təsdiq edir;
- Təşkilatın əməkdaşlarının təhsil alması üzrə proqramlar və tədbirlərə aid təkliflər hazırlayır və təsdiq edir;
- Təşkilatın adından Təşkilatın mülkiyyətində olan, harada yerləşməsindən, nədən ibarət olmasından və dəyərindən asılı olmayaraq bütün növ daşınar və daşınmaz əşyalar barəsində sərəncam verir (satmaq, icarəyə, əvəzli və ya əvəzsiz istifadəyə vermək, satış dəyərini müəyyən etmək və sair);
- Yerli və ya xarici kredit təşkilatlarından kreditlərin alınması, istiqirazların buraxılması, bununla bağlı zəruri olan digər bütün qərarların qəbul edilməsi, büdcədənkənar pul köçürmələri, qəbz, çek, kredit, zəmanət və ya təsdiq, qeyd və ya digər maliyyə sənədləri və ya fəaliyyəti kimi müqavilələr bağlamaq və onların həyata keçirilməsi ilə əlaqədar

sənədləri müvafiq əməliyyatların məbləği/dəyəri üzərində heç bir məhdudiyyət olmadan Təşkilatın adından təsdiq etmək;
- Təşkilatın filial və nümayəndəliklərinin təsis edilməsi barədə qərarlar qəbul etmək;
- Ümumi Yığıncağın və Müşahidə Şurasının səlahiyyətlərinə aid edilməyən digər bütün məsələlər barədə qərar qəbul etmək;
- Təşkilatın fəaliyyəti ilə bağlı digər zəruri sənədlərin və təkliflərin hazırlanmasını həyata keçirir;

Emitentin icra orqanına nəzarəti həyata keçirən Müşahidə Şurasıdır

Müşahidə Şurası aşağıdakı səlahiyyətlərə malikdir:
- Təşkilatın fəaliyyətinin əsas istiqamətlərini və inkişaf strategiyasını müəyyənləşdirmək, Təşkilatın biznes planını təsdiq etmək;
- Təşkilatın icra orqanının fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən İdarə Heyətindən məlumat almaq;
- Ümumi Yığıncaq və İdarə Heyəti üçün tövsiyələr vermək;
- Təşkilat tərəfindən qüvvədə olan qanunvericiliyin pozulması faktını müəyyən etdikdə bu pozuntu barəsində Ümumi Yığıncağı və İdarə Heyətini xəbərdar etmək;
- Təşkilatın idarə olunmasını təmin etmək üçün zəruri olan qaydaları və əsasnamələri qəbul etmək;
- Təşkilatın fəaliyyətinin kompleks və ayrı-ayrı sahələrinin yoxlanılması barədə qərar qəbul etmək;
- Müşahidə Şurasının alt komitələrini seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək

17.3. Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat: Mövcud deyil.

18. İSTİQRAZLAR HAQQINDA ÜMUMİ MƏLUMAT

18.1.1. Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:
Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-cı il tarixli 05 nömrəli qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və 27 yanvar 2016-cı il tarixli, 04 saylı nömrəli Qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydalar.

18.1.2. Təklif olunan qiymətli kağızların reytinqi və bu reytinqə təsir edən amillər barədə məlumat: Təklif edilən istiqrazların reytinqi mövcud deyil.

18.1.3. İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda): Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

18.1.4. İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə emitentin öhdəliyi: Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 123.1 ci maddəsinə əsasən Rezident fiziki şəxsə, qeyri-

rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, Məcəllənin 102.1.22-2-ci maddəsində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

Bununla yanaşı, AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

18.1.5. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat: Emissiya ediləcək istiqrazlar həm fiziki, həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

18.1.6. İstiqrazların növü: Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqraz.

18.1.7. Təklif edilən istiqrazların sayı və nominal dəyəri: nominalı 100 (bir yüz) Azərbaycan manatı olan 50 000 (əlli min) ədəd istiqraz.

18.1.8. İstiqrazların valyutası: Azərbaycan manatı

18.1.9. İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:

İstiqrazın sahibi aşağıdakı hüquqlara malikdir:

- Emitentin ləğvi, yaxud emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini bütün digər kreditorların tələbləri bütün digər kreditorların tələbləri ilə birlikdə növbəlilik prinsipi əsasında emitentdən tələb etmək;
- Özünə məxsus istiqrazların vəziyyəti barədə məlumat almaq üçün birbaşa Milli Depozit Mərkəzinə müraciət etmək;
- İstiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yükləmək. Belə yüklənmə qiymətli kağızlar üzrə Milli Depozit Mərkəzində qeydiyyata alındığı andan qüvvəyə minir;
- İstiqrazlarla təsdiqlənmiş hüquqları alqı-satqı əqdləri bağlamaq yolu ilə ötürmək;
- İstiqrazlar üzrə ödənilən faizlər təxirə salınarsa, həmin müddət ərzində ödənilməyən faizləri istiqrazların ödənilmə vaxtında almaq;
- İstiqrazları tədavül müddəti ərzində istənilən vaxt özgəninkiləşdirmək;
- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini emitentdən almaq;

- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən bu qərarla müəyyən olunmuş şərtlərlə faiz gəliri almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

18.1.10. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti: Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının mülki məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

18.1.11. İstiqrazlar üzrə ödənilməli faizlər: 15 (on beş) faiz təşkil edəcək.

18.1.12. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu: Faiz dərəcəsi müəyyən olunmuşdur.

18.1.13. Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları: İstiqrazlar üzrə baza aktivi mövcud deyil. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcəkdir.

18.1.14. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat: Təklif edilmiş istiqrazlar təmin edilməmişdir.

18.1.15. İstiqrazların geri satın alınmasının şərtləri: Emitentin istiqrazları geri satınalınma hüququ və ya öhdəliyi yoxdur. Lakin emitentin təklifi və müraciəti ilə istiqrazlar geri satınalına bilər. emitent investorların razılığı olmadan geri satınalmanı həyata keçirə bilməz. Geri satınalma halı baş verdikdə hər iki tərəfin (emitent və investorlar) qarşılıqlı razılığı ilə həyata keçiriləcəkdir.

18.1.16. Gəlirlilik dərəcəsi və onun hesablanması qaydası

İstiqrazlar üzrə illik faiz dərəcəsi 15.00 (on beş) faiz təşkil edir.İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$TF = \frac{\left(\frac{N * D * G}{360}\right)}{100}$$

Burada:
TF – Bir istiqraz üzrə toplanmış faizlər(Azərbaycan manatı) ilə ifadə olunur;
N – Bir istiqrazın nominal dəyəri: 100 (yüz) Azərbaycan manatı;
D – İstiqrazların illik faiz dərəcəsi: 15 (on beş) faiz;
G – İstiqrazların faiz ödəniş dövrünün müddəti (hər 3 (üç) ayda bir (bir ayda 30 (otuz) gün olduğunu qəbul etmək şərti ilə);

18.1.17. İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat: Mövcud deyil.